UOT 37.01

***Ülfət Gülyar oğlu Adıgözəlov***
*Salyan şəhəri, Qaraçala qəsəbəsi tam orta məktəbinin riyaziyyat müəllimi*

# AZƏRBAYCAN TƏHSİLİNDƏ TESTOLOGİYA İLƏ BAĞLI PROBLEMLƏR

***Ульфат Гюльяр оглу Адыгезалов***
*преподаватель математики общеобразовательной школы посёлка Гарачала города Сальян*

# ПРОБЛЕМЫ ТЕСТОЛОГИИ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА

***Ulfat Gulyar Adigozalov***
*teacher of mathematics in the high school of Garachala settlement of Salyan town*

# THE PROBLEMS OF TESTOLOGY IN THE EDUCATIONAL SYSTEM OF AZERBAIJAN

**Xülasə:** Uzun illərdir ki, testlərin hazırlanması zamanı buraxılan səhvlər pedaqoji ictimaiyyəti narahat edir. Bu nöqsanların yaranma səbəblərinin müəyyən edilməsi və onların aradan qaldırılması zamanın tələbidir. Məqalədə bu nöqsanların yaranma səbəbləri və onların aradan qaldırılması yollarından bəhs edilir, bunun üçün konkret nümunələr göstərilir.
***Açar sözlər:*** *testologiya, məzmun, bilik, qiymətləndirmə, sual, cavab.*

**Резюме:** В течение многих лет педагогическая общественность обеспокоена ошибками, допускаемыми при разработке тестов. Выявление причин возникновения этих недостатков и их устранение являются требованием времени. В данной статье рассказывается о причинах возникновения этих недостатков и путях их устранения и приводятся конкретные примеры.
***Ключевые слова:*** *тестология, содержание, знание, оценивание, вопрос, ответ.*

**Summary:** Throughout many years the pedagogical community has been troubled by the errors committed in the developed tests. It is demand of the time to find out the causes of shortcomings and eliminate them. The given article shows the causes of shortcomings and the ways they could be eliminated and provides specific examples.
***Key words:*** *testology, content, knowledge, assessment, task, answer.*

Məlumdur ki, ali və orta ixtisas məktəblərinə qəbul prosesinin obyektiv keçirilməsi üçün işlək mexanizm yaradıldı. Subyektiv amillərin müdaxiləsi sıfıra endirildi. Beləliklə, qəbulda test üsulu özünü tam doğrultdu. Test üsulu orta ümumtəhsil məktəblərində geniş tətbiq edilməyə başladı. Proses bununla bitmədi. Bütün sahələr üzrə işə qəbul prosesi testlər vasitəsilə həyata keçirilməyə başladı. Artıq TQDK-nın funksiyası genişləndi, buna görə də Prezident qurumun adını dəyişib DİM(Dövlət İmtahan Mərkəzi) qoydu və ona publik hüquqi şəxs statusu verdi. Bu ad qurumun apardığı işlərin mahiyyətinə tam uyğun gəlir. Xalq qəbul prosesindən məmnun olduğunu açıq- aşkar bəyan etdi. İndiyə kimi də ali məktəblərə qəbul prosesi test tapşırıqları vasitəsilə həyata keçirilir.

Respublikamızda test üsulunun geniş yayılmasına baxmayaraq, bir sıra problemlər hələ də qalmaqda davam edir. Bu problemlər əsasən testologiyanın ümumi problemləri ilə bağlıdır. Təbii, ölkəmizin təhsilindəki spesifika ilə əlaqəli olan problemlər az deyil.

Testin mahiyyətindən doğan problemlər bunlardır:

1. Test vasitəsilə təlim materialının dərindən mənimsənilməsini yoxlamaq mümkün olmasına baxmayaraq, o, xeyli çətindir.

2. Təhsilalanlarla birbaşa əlaqənin olmaması qiymətləndirmənin nəticəsini obyektiv əks etdirsə də, digər tərəfdən, nəticəyə təsadüfi halların təsir imkanlarını çoxaldır.

3. Testləri tərtib edən zaman sınaqdan keçilənlərin tapşırığı yerinə yetirmək üçün qiymət-

ləndirilmə şkalasını formalaşdırmaq xüsusi çətinlik törədir. Müxtəlif informasiya mənbələrini axtarsaq, qiymətləndirmə şkalasının tərtibi ilə bağlı vahid və qaneedici fikrə rast gələ bilmirik. Səbəbi çox sadədir. Öyrənilən fənlər müxtəlifdir və onların mənimsənilməsini müəyyən edən qiymətləndirmə şkalasını standart formada tətbiq etmək mümkün deyil.

Test üsulu MDB içərisində ilk dəfə olaraq məhz Azərbaycanda tətbiq edilmişdir. Sonra isə bu təcrübə MDB-nin digər ölkələrinə yayılmışdır. Ölkəmizin bu sahədə digər MDB dövlətlərinə nisbətən təcrübəsi çox olsa da, bir sıra problemlərdən qaçmaq mümkün deyil.

1. Hər şeydən əvvəl ölkəmizdə testologiya ilə sistematik məşğul olan hər hansı bir qurum yoxdur. Düzdür, TQDK testlərin hazırlanmasına yüzlərlə müəllim cəlb etmişdir, lakin bu işə elmi şəkildə nəzarət edən orqan yoxdur. Bəzən elə olur ki, müəyyən ixtisas qrupu üzrə test hazırlanmasına nəzarət edən komissiya üzvlərinin sayı 15-ə çatır. Komissiya üzvləri lazımi qədər məvacib ala bilmədiyi üçün bu işi başdansovdu şəkildə yerinə yetirir. 2012-2014- cü illərdə bir testi hazırlamaq üçün müəllifə 1,5 manat pul verilirdi. Təbii, belə qiymətə hazırlanan testlərin keyfiyyətindən danışmağa dəyməz.

2. Seminarlar zamanı pedaqoji ictimaiyyət kifayət qədər yararsız testlər aşkarlamış və TQDK-nın rəhbərliyinə təqdim etmişdir. Növbəti illərdə həmin testlərdən istifadə edilməsə də, yenidən problemli testlərlə rastlaşmışıq, çünki test bankı belə invalid testlərlə doludur və TQDK bütövlükdə banka nəzarət edə bilməmişdir.

3. Test tapşırıqları forma və məzmun baxımından rəngarəng deyil.

4. Bəzən test tapşırıqlarına diqqət yetirəndə "Bu tapşırıq şagirdə nə verəcək?" sualına cavab verə bilmirik, testlərə həyatilik baxımından zəmanət yoxdur.

5. Test tapşırıqlarının bəzisi (hətta qəbul zamanı) proqram materialından kənara çıxır, daha vacib olan məlumatlar əvəzinə xırda, əhəmiyyətsiz məlumatlardan ibarət olur.

6. Danılmaz faktdır ki, test yoxlaması müəllimin gələcək fəaliyyətini hansı istiqamətdə qurması üçün əvəzsiz vasitədir. Test metodu artıq 25 ildir ki, Azərbaycan Respublikasında tətbiq edilir. Buna baxmayaraq, beynəlxalq yarışmalarda bizim şagirdlərimiz layiqli yer tuta bilmirlər. Başlıca səbəb onda deyil ki, bizim yetirmələrimiz savadsızdırlar. Əlbəttə, onların içərisində minlərlə savadlı, dərin təfəkkürə malik övladlarımız var. Məsələ burasındadır ki, beynəlxalq yarışmalarda istifadə edilən testlər forma və məzmun etibarı ilə bizim tərtib etdiyimiz testlərdən fərqlənir. Xüsusilə riyaziyyat üzrə testlərdə bir neçə cavabı olan məsələlər öz əksini tapır, bizdə isə belə testlər məktəblərdə öyrədilmir. Əlbəttə, nümunələr çoxdur, yalnız biri üzərində dayanmaqla problemin mövcudluğuna işarə vurduq.

Testlərdəki problemlərlə bağlı bir neçə nümunəyə diqqət yetirək.

1. V sinif KSQ (kiçik summativ qiymətləndirmə testi.

Cümləni davam etdirin. O çox utancaq idi, heç kimə...

A. Dəyib-toxunmurdu;

B. Deyib-gülmürdü;

C. Qaynayıb-qarışmırdı;

D. Açıb-ağartmırdı.

Müəllifin fikrincə, düzgün cavab C variantında öz əksini tapmışdır.

Bu testin həm təlimatında, həm məntiqi uyğunluğunda, həm də ifadə olunmasında nöqsanlar vardır. B,C,D cavablarının hamısı həm düzgün, həm də cavab ola bilər. Yalnız A variantı istisna təşkil edir, çünki utancaqlıqla dəyib-toxunmaq arasında heç bir məntiqi əlaqə yoxdur. Ona görə də müəllif təlimatı belə ifadə edə bilərdi: hansı variantı əlavə edəndə mürəkkəb cümlənin komponentləri arasındakı əlaqə pozulur. Beləliklə, A variantını düzgün cavab kimi seçmək olardı. Yuxarıda verdiyimiz test nümunəsində üç formada yanlışlığa yol verilmişdir:

1. Testin təlimatı düzgün ifadə edilməmişdir.

2. Testin məzmunu yanlışdır, belə ki, birmənalı cavab yoxdur.

3. Testin təlimatında verilən baş cümlə ilə variantlardakı cümlələrin hamısı morfoloji cəhətdən bir-biri ilə bağlana bilmir (demək olmaz: o utancaq idi, heç kimə deyib-gülmürdü).

Test suallarının tərtibində cavablarla bağlı bəndlər işlənərkən şagirdləri çaşdıracaq cavabın qoyulmaması tələb olunur. Mənim fikrimcə bu tələb bəzən bizi sualların tərtibində yanlışlığa da apara bilər.

Məsələn: Sahələri nisbəti 3 : 1 olan iki kvadratın tərəfləri nisbətini tapın.

A) 3 B) $\frac{1}{3}$ C) $\sqrt{3}$

D) $\frac{1}{\sqrt{3}}$ E) 9

Bu test tapşırığında düzgün cavab C bəndidir. D bəndi isə çaşdırıcı cavabdır. Çünki məsələnin mahiyyəti şagirdin "oxşar fiqurların tərəfləri nisbətinin kvadratı sahələri nisbətinə bərabərdir" qaydasını bilməsini yoxlamaqdır. Kvadratlardan hansının-hansına nisbətinin olması əsas məsələ deyil. Ona görə D variantı çaşdırıcı cavabdır.

Növbəti suala baxaq: Çoxbucaqlının bir təpəsindən çıxan diaqonallarının sayı 10 olarsa, onun tərəflərinin sayını tapın.

A)7 B) 9 C) 10

D) 13 E) 15

Bilirik ki, "çoxbucaqlının bir təpəsindən çıxan diaqonallarının sayı, tərəflərinin sayından üç azdır". Yəni doğru cavab D bəndidir. Bu sualda A bəndindəki cavaba çaşdırıcı cavab demək olmaz. Mənim fikrimcə A bəndindəki cavab, cavablar arasında mütləq iştirak etməlidir. Çünki, şagird bu cavabı səthi bilərsə və ya dəqiq bilməzsə 7 cavabını götürə bilər. 7 cavabı bəndlərdə olmazsa o zaman bu test tapşırığı ölçücü yox öyrədici olar.

Əlbəttə, problemlər bununla bitmir. Güman edirəm ki, bundan ötrü də ciddi araşdırmaya ehtiyac vardır.

Onu da qeyd etmək lazımdır ki, Dövlət İmtahan Mərkəzi yeni test məhsullarının yaranması üçün xeyli iş görmüşdür. 2017 ci ildən artıq yazı işlərini beynəlxalq standartlara uyğun olaraq yoxlamaq üçün müəllimlər təlimlərə cəlb edilmişdir. Düzdür, proses ilkin mərhələdədir. İstifadə edilən kriteriyalar abituriyentlərin bilik səviyyəsinə uyğun olaraq tərtib edilmişdir. Bu da onu deməyə əsas verir ki, beynəlxalq yarışmalarda tətbiq edilən kriteriyalardan istifadə bu günün tələbi deyil və buna görə də yaxın gələcəkdə beynəlxalq yarışmalarda ürəkaçan fərqlənmələr olmayacaq. Beynəlxalq bilik yarışmalarında respublikamızı təmsil edən layiqli gənclər yetişdirmək üçün Təhsil Nazirliyi bir sıra müsbət addımlar atmışdır. Belə ki, istedadlı şagirdləri beynəlxalq olimpiadalara hazırlamaq üçün xüsusi mərkəz yaratmışdır. Həmin mərkəzdə bacarıqlı müəllimlər olimpiada üzrə beynəlxalq təcrübəni dərindən öyrənir və olimpiada materialları üzərində şagirdlərlə ciddi iş aparırlar. Heç şübhəsiz gələcəkdə mötəbər yarışlarda ölkəmiz layiqincə təmsil olunacaqdır, çünki artıq bu sahədə inkişafın ilk simptomları görünməkdədir, çünki ölkəmizdə keçirilən olimpiadalarda şagirdlər yüksək göstəriciləri ilə fərqlənmişlər. Ona görə də meyarların bizim şagirdlərin bilik səviyyəsinə uyğun tətbiq edilməsini yanlış addım hesab edirik, çünki burada yüksək biliyə malik abituriyentlər də vardır, onların səviyyəsini isə tətbiq olunan meyarlarla ölçmək düzgün deyil. Amma prosesin başlanması şagirdlərimizin gələcək fəaliyyəti üçün çox önəmli və ümidvericidir.

**Problemin aktuallığı**. Ölkəmizdə tətbiq olunan test tapşırıqlarının hazırlanmasında problemlərin olması və uzun illər bu problemlərin davam etməsi.

**Problemin elmi yeniliyi**. Qəbul imtahanları zamanı təklif olunan test tapşırıqlarının nöqsanları, təsnif edilmiş, əsas xarakteristik cəhətlər göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Təcrübədə tez-tez rast gəlinən testlərdəki səhvlər və onların aradan qaldırılması yolları göstərilmişdir.

**Ədəbiyyat:**

1. Агудов В.В. Категории «форма и структура». М.: Знание, 1970.

2. Украинцев Б.С. К вопросу об определении категорий «содержание» и «форма». Вопросы диалектического материализма. М., 1957.

3. Бодяй В.А. Взаимоотношения между содержанием и формой и значение этих категорий для практической деятельности коммунистической партии. Сб.научных работ вып.83,1959.

4. https://superinf.ru/view_article.php?id=235).

E mail: aulfet8@yahoo.com

**Rəyçi:** *ped.ü.elm.dok., prof.* Ə. Pələngov

**Redaksiyaya daxil olub: 24.04.2018**